**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**Bakı Dövlət Universiteti**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 27 oktyabr 2009-cu il tarixli 1195 saylı əmri ilə təsdiq edilmişdir*

# DİLÇİLİK METODLARI

**kursu üzrə**

**PROQRAM**

**Dövlət universitetləri üçün**

**İxtisaslar:** *Azərbaycan dili və ədəbiyyatı*
*Roman-german dilləri və ədəbiyyatı*
*Şərq dilləri və ədəbiyyatı*

**Bakı – 2010**

*Proqram*
*Bakı Dövlət Universitetinin*
*ümumi dilçilik kafedrasında*
*hazırlanmışdır*

| | |
|---|---|
| **Tərtib edən:** | prof. Ə.Ə.Rəcəbli |
| **Məsul redaktor:** | N.Ə.Əliyeva<br>filologiya elmləri namizədi |
| **Rəyçilər:** | prof. İ.Z.Qasımov<br>dos. Ş.V.Qasımova |

© «Bakı Universiteti» nəşriyyatı, 2010

## İzahat vərəqəsi

Ümumi dilçiliyin əsas problemlərindən biri də dilçiliyin metodları – dilin tədqiqat metodları məsələsidir. Müəyyən bir tarixi dövrdə dilçilik metodları hətta dilçiliyin inkişafının səciyyəsini müəyyənləşdirə bilər. Məsələn, F.Boppun müqayisəli-tarixi dilçiliyi yaratmasından sonra, xüsusən XIX yüzilliyin ikinci yarısında gənc qrammatiklər məktəbinin dilçilikdə aparıcı cərəyan olması nəticəsində müqayisəli-tarixi metod gücləndi və dilçiliyin əsas tədqiqat metoduna çevrildi. Müasir dilçilik üçün isə struktur və tipoloji metodlardan istifadə səciyyəvidir.

Digər tərəfdən, dilçilik tədqiqatı metodlarının özləri dəkonkret olaraq tədqiqat metodikası və üsullarına, habelə tədqiqat obyektinin xüsusiyyəti, tədqiqatın məqsədi və tədqiqatçının seçdiyi dilçilik aspekti baxımından rəngarəngdir. Məsələn, ədəbi dillərin araşdırılması metodları, çöl şəraitində dil faktlarının toplanması metodları, sosiolinqvistika tədqiqat metodları, psixolinqvistik tədqiqat metodları, səslərin fonetik xarakteristikasını öyrənən metodlar, naməlum mətnin açılması üçün tətbiq edilən xüsusi üsullar, rekonstruksiya (bərpa) metodları və s. metodlardandır. Bir sözlə, dilin, az qala, hər sahəsi spesifik tədqiqat metodunun tətbiq edilməsini tələb edir. Bu metodlardan bəziləri artıq kamil tədqiqat metodika və üsulları hazırlamış, bəziləri isə hələ təşəkkül dövrü keçirir. Buna görə də dilçiliyin tədqiqat metodlarının tam formalaşdığını iddia etmək səhv olardı. Dilin tədqiqinin bəzi metodları hələ eksperiment mərhələsindədir. Məsələn, tipoloji tədqiqatlar hələ aydın, mükəmməl əsaslarını işləməmişdir. Tipoloji tədqiqata aid olan riyazi metodlar, deskriptiv dilçiliyin metodları, modelləşdirmə metodu, statistik metodlar, transformasion qrammatika metodu və s. hələ təşəkkül prosesi keçirdiyi üçün onlar haqqında müfəssəl və qənaətləndirici məlumat vermək mümkün deyildir, lakin ali məktəblərin ixtisası filologiya

(dilçilik) olan magistraturasında hər halda bu metodlar haqqında da müəyyən hüdud dairəsində bilik verilməlidir.

Magistraturanın dil ixtisası üzrə təhsil alan dinləyiciləri üçün nəzərdə tutulan "Dilçilik metodları" fənnində dilin tədqiqində tətbiq edilən metod və üsulların öyrənilməsi nəzərdə tutulur. Proqramda ilk növbədə dilin araşdırılmasında metodika və üsulları artıq təkmilləşmiş, formalaşmış metodların tədrisinə üstünlük verilir. Buraya müqayisəli-tarixi metodun da daxil olduğu dilin tədqiqinin genetik metodları, dilin müasir vəziyyətini araşdıran təsviri metod, artıq özünün tədqiqat üsullarına malik dilçilik coğrafiyası metodu və XX yüzillikdə yaranmasına baxmayaraq artıq özünün metodika və üsullarını işləyib hazırlamış struktur dilçilik metodları daxildir. Bunlardan başqa, dinləyicilərin gələcəkdə tipoloji tədqiqatla da məşğul olacaqları nəzərə alıb tipoloji tədqiqat metodlarının da tədrisi lazım sayılır. Tədrisdə dillərin sinxron və diaxron təsviri üsullarının öyrənilməsinə də müəyyən qədər diqqət yetirilməsi nəzərdə tutulmuşdur.

## Giriş

Elmi metodologiya anlayışı. Metodologiya və metod. Metod, metodika və üsul (priyom) anlayışları. İdrak (qavrama) metodları və elmi metodologiya, elmi qavrama proses kimi. Konkret elmi-tədqiqat metodları və onların strukturu. Metod nəzəriyyəsi və metodun linqvistik əsasları. Elmi üsullar (priyomlar) sistemi. Texniki üsul və prosedurlar. Müşahidə dili öyrənmə üsulu kimi. Təcrübə (eksperiment) dili öyrənmə üsulu kimi. Linqvistik modelləşdirmə. Linqvistik şərh. Empirik və nəzəri biliklərin vəhdəti. Dilçilik tədqiqatlarında aspektin rolu. Tədqiqatçının görüşünün elmi-tədqiqat metodlarının təsiri.

Dilçilik metodları. Metod və dilin öyrənilməsi üsulları. Metod tədqiqat üsulu kimi. Tədqiqat metodikası. Tədqiqat metodikası və təsvir üsulu. Əsas dilçilik metodlarının təsnifi.



Dilçilik metodlarının tətbiqində tipik qüsurlar. Nəzəri müddəaların kamil olmaması. Bütövün bir hissəsinin ümumiləşdirilməsi. Dilçilik metodlarının kibernetikləşdirilməsi. Yanlış olan analogiya prinsipi ilə tədqiqat aparılması. Dil vahidləri reallığının konvensionalist konsepsiyası. Metodun düzgün seçilməməsi. Obyektin təbiətinə xas olmayan xüsusiyyətlərin öyrənilən obyektə aid edilməsi.

## Təsviri metod

Dil vahidləri və onların təsviri. Dil vahidləri və onların əlamətləri. Dil vahidləri və təhlil vahidləri. Təsviri metodun üsullarının (priyomlarının) əsas tipləri.

Dilin xarici əlamətlərini öyrənmə üsulları. Sosioloji tədqiqat üsulları. Məntiqi tədqiqat üsulları. Psixoloji tədqiqat üsulları. Fizioloji-akustik tədqiqat üsulları. Qatlararası şərh üsulları. Dilçilikdə distributiv metodika.

Dilin daxili əlamətlərini öyrənmə üsulları. Təsnifat üsulları və sistemləşdirmə. Paradiqm üsulları və paradiqm metodikası. Qarşılaşdırma üsulları. Çevrilmə və transformasiya metodikasının üsulları. Müstəqim tərtibçilər üsulu.

Dilin tədqiqində riyazi üsullar. Məntiqi-riyazi hesablama üsulu və çoxluqlar nəzəriyyəsi. Statistik üsullar. Ehtimallar nəzəriyyəsi.

Dilçilik tədqiqatlarında cihazlar və avtomatlaşdırma. Cihaz-fonetik üsullar. Dilçilik tədqiqatlarının avtomatlaşdırılması.

Sosiolinqvistikanın metodları. Sosiolinqvistik məlumatı toplama metodları. Sosiolinqvistik təhlil metodları. Sosiolinqvistik təhlilin prinsip və metodları.

## Linqvogenetik tədqiqatları metodikası

Linqvogenetik tədqiqatların metodikası

Müqayisə anlayışı. Dillərin müqayisəsinin iki tipi.

Müqayisəli-tarixi metod. Meqayisəli-tarixi dilçilik və müqayisəli-tarixi metod. Müqayisəli-tarixi metodun mahiyyəti, məqsədi və üsulları. Dillərin mənşəcə eyniliyinin müəyyənləşdirilməsi. Praforma anlayışı və praformanın bərpası. Dillərin tarixinin öyrənilməsində tekstoloji üsullar. Mütləq və nisbi xronologiya. Etimoloji təhlil üsulu.

Müqayisəli-genetik tədqiqatların texnikası.

Müqayisəli-tarixi metodun obyektiv linqvistik əsasları. Müqayisəli-tarixi tədqiqatların əsas üsulları. Sintaksis sahəsində bərpa. Sözlərin arxaik mənalarının bərpası. Ulu dil problemi. Daxili bərpa (rekonstruksiya) üsulları. Kəmiyyət metodlarından istifadə. Dilin tipoloji xüsusiyyətlərindən və dil universalilərindən istifadə. Digər dillərin materiallarından istifadə.

Tarixi-müqayisəli metod. Tarixi eynilik və fərqlənmə. Daxili bərpa və xronoqlaşdırma. Dialektoloji təhlil üsulu. Mədəni-tarixi şərhlər üsulu. Tekstoloji üsullar.

## Dillərin sinxron və diaxron təsviri

Sinxroniya və diaxroniyanın hüdudlandırılması problemi. Dilin sinxron və diaxron təsvirinin qarşılıqlı əlaqələri.

## Tipoloji metodlar

Dillərin oxşarlığı və onların tədqiqi metodları. Müqayisə universal, linqvistik üsul kimi. Tipoloji təhlilin prinsipləri.

Dillərin müqayisəli tutuşdurma tədqiqi və tutuşdurma metodu. Tutuşdurma üçün əsasların müəyyənləşdirilməsi. Tutuşdurmanın şərhi. Tutuşdurma metodikası və tipoloji tədqiqatlarda onun əhəmiyyəti. Qohum dillərin tutuşdurma üsulu ilə araşdırılması. Qohum olmayan dillərin tutuşdurma üsulu ilə öyrənilməsi.



## Dilçilik coğrafiyası metodları

"Dilçilik coğrafiyası" və "areal dilçilik" anlayışlarının məzmunu. Dilçilik coğrafiyasının tarixindən. Dilçilik coğrafiyası metodlarının linqvistik əsasları. Dilçilik coğrafiyasının sinxron və diaxron istiqamətləri.

Dilçilik coğrafiyasının sinxronik aspekti. Dialektlərin aşkar edilməsi metodları. Toponimik və hidronimik areaların aşkar edilməsi.

Dilçilik coğrafiyasının diaxronik aspekti. İnnovasiya və arxaizmlərin müəyyənləşdirilməsi. Dil hadisələrinin yayılma mərkəzlərinin müəyyənləşdirilməsi. Dil attraksiyası hadisələrinin araşdırılması. Dil ittifaqları areallarının müəyyənləşdirilməsi İtmiş dil-substrat təsiri nəticələrinin aşkar edilməsi.

Tarixi dialektologiyanın problemləri. Ulu dil dialektlərinin yayılma areallarının müəyyənləşdirilməsi. Konkret dilin qədim dialekt parçalanmasının aşkar edilməsi.

## Struktur təhlil metodları

Struktur təhlilin prinsipləri. Dilə struktur münasibət. Səs və semantik substansiyaların mühüm əlamətləri və onları aşkar etmə üsulları. Dilin struktur vahidləri arasındakı hüdudların müəyyənləşdirilməsi. Dil vahidlərinin funksional təsnifi.

İyerarxik münasibətlər və onların müəyyənləşdirilməsi metodları.

Dilin morfoloji vahidlərinin derivasiyasında ilkin formanın seçilməsi.

## Ədəbiyyat:


1. M.Adilov, Z.Verdiyeva, F.Ağayeva. İzahlı dilçilik terminləri lüğəti. Bakı, 1989.
2. Ağamusa Axundov. Ümumi dilçilik. Bakı, 2006.

3. Ağamusa Axundov. Riyazi dilçilik. Bakı, 1979.
4. Afat Qurbanov. Ümumi dilçilik. II, Bakı, 2005.
5. Afat Qurbanov. Dilçiliyin metodları. Bakı, 1978.
6. Afat Qurbanov. Dilçiliyin sistemi. Bakı, 1976.
7. Ю.Д.Апресян. Идеи и методы структурной лингвистики, М., 1966.
8. В.А.Артемов. Экспериментальная фонетика. М., 1956.
9. Ш.Бали. Общая лингвистика и вопросы французского языка. М., 1955.
10. Э.Бенвенист. Классификация языков. «Новое в лингвистике», вып. III, М., 1963.
11. Л.Блумфилд. Язык. М., 1968.
12. М.А.Бородина. Проблемы лингвистической географии, М., 1968.
13. Р.А.Будагов. Человек и его язык. М., 1974.
14. Ж.Вандриес. Язык. М., 1937.
15. В.А.Гак. Сопоставительная лексикология. М., 1977.
16. Г.Глисон. Введение в дескриптивную лингвистику, М., 1959.
17. Дж. Гринберг. Квантитативный подход к морфологической типологии языков. «Новое в лингвистике», вып. III, М., 1963.
18. В.М. Жирмунский. Введение в сравнительно-историческое изучение германских языков. М.-Л., 1964.
19. Л.С.Засорина. Введение в структурную лингвистику. М., 1974.
20. В.А.Звегинцев. Очерки по общему языкознанию. М., 1962.
21. В.А.Звегинцев. Теоретическая и прикладная лингвистика, М., 1968.
22. А.Е. Кибрик. Методика полевых исследований. М., 1972.
23. В.И.Кодухов. Общее языкознания. М., 1974.
24. Е.Курилович. О методах внутренней реконструкции. «Новое в лингвистике», вып. IV, М., 1965.
25. Е.Курилович. Очерки по лингвистике. М., 1962.



26. Э.А.Макаев. Общая теория сравнительного языкознания. М., 1977.
27. Э.А.Макаев. Проблемы индоевропейской ареальной лингвистики. М.-Л., 1964.
28. С.Маркус. Теоретико-множественные модели языков. М., 1970.
29. А.Мартине. Основы общей лингвистики. «Новое в лингвистике», вып. III, М., 1963.
30. Математическая лингвистика. М., 1973.
31. А.Мейе. Введение в сравнительное изучение индоевропейских языков. М.-Л., 1938.
32. А.Мейе. Сравнительной метод в историческом языкознание. М., 1954.
33. А.М.Мухин. Лингвистический анализ. «Теоретические методологические проблемы», Л., 1976.
34. Общее языкознание. Методы лингвистических исследований. М., 1973.
35. В.З.Панфилов. Философские проблемы языкознания. М., 1977.
36. В.Пизани. Этимология. М., 1956.
37. Принципы описания языков мира. М., 1976.
38. Проблемы грамматического моделирования. М., 1973.
39. Г.И. Рамстедт. Введение в алтайское языкознание. М., 1957.
40. И.И.Резвин. Современная структурная лингвистика. Проблемы и методы. М., 1977.
41. Ə.Ə.Rəcəbli. Dilçilik metodları. Bakı, 2003.
42. Д.З.Розенталь, М.А.Теленкова. Словарь справочник лингвистических терминов. М., 1976.
43. Э.Сепир. Язык. М.-Л., 1934.
44. Б.А.Серебринников. Вероятностное обоснования в компаративистике. М., 1974.
45. В.Скаличка. О современном состоянии типологии. «Новое в лингвистике», вып. III, М., 1963.
46. И.А.Слюсарева. Лингвистический анализ по непосредственно составляющим; журн. «Вопросы языкознания», М., 1960. №6.

47. А.И.Смирницкий. Сравнительно-исторический метод и определение языкового родства. М., 1955.
48. Ф.де Соссюр. Труды по языкознанию. М., 1977.
49. Ю.С. Степанов. Методы и принципы современной лингвистики, М., 1975.
50. Теоретические проблемы прикладной лингвистике. М., 1965.
51. Н.С.Трубецкой. Основы фонологии. М., 1960.
52. Б.А.Успенский. Проблемы универсалий в языкознании. «Новое в лингвистике», вып. V, М., 1970.
53. Б.А.Успенский. Структурная типология языков. М., 1965.
54. С.К.Шаумян. Структурная лингвистика. М., 1965.
55. Д.И.Эдельман. Основные вопросы лингвистической географии. М., 1968.
56. Р.Якобсон. Типологические исследования и их вклад в сравнительно-историческое языкознание. «Новое в лингвистике», вып. III, М., 1963.
57. Р.Якобсон. Избранные работы. М., 1985.